"Qərbi Azərbaycana Qayıdış"
Festival-Konqres

# QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ KONSEPSİYASI SÜLH VƏ ƏDALƏT KONSEPSİYASI KİMİ



"QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ"
FESTİVAL-KONQRES

# QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ KONSEPSİYASI SÜLH VƏ ƏDALƏT KONSEPSİYASI KİMİ

NAXÇIVAN-2024

**MÜƏLLİF:** Elbrus İSAYEV
*Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent*

**ELMİ REDAKTOR:** Hacıfəxrəddin SƏFƏRLİ
*Tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü*

Topluda 23-24 noyabr 2023-cü il tarixlərində Naxçıvanda keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqres haqqında sənədlər, məlumatlar, fotolar əksini tapmışdır. Toplu Qərbi Azərbaycan mövzusunda tədqiqat aparanlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.



"Dünya heç vaxt belə qalmayacaq, dünyada hər şey dəyişir. XX əsrin sonu, XXI əsrin ilk illəri bunu sübut edir və göstərir ki, dünyada çox böyük dəyişikliklər gedir. Bəli, heç bir şey bir yerdə durmur. Heç bir şey olduğu kimi qalmır. Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz.  Mən buna heç şübhə etmirəm".

**HEYDƏR ƏLİYEV**

***Azərbaycan xalqının Ümummilli Lideri***



*Azərbaycan Respublikasının Prezidenti*

## İLHAM ƏLİYEVİN

24 dekabr 2022-ci il tarixli çıxışı

- Mən ikinci dəfədir ki, bu binadayam. On iki il bundan əvvəl binanın açılışında iştirak etmişəm. Onu da bildirməliyəm ki, bu bina mənim göstərişimlə inşa edilmişdir və ovaxtkı məcburi köçkünlər üçün nəzərdə tutulmuşdur, Qarabağdan olan məcburi köçkünlərin təşkilatı bu binada yerləşmişdi. İkinci dəfədir ki, buradayam və artıq bu binada Qərbi Azərbaycan İcması yerləşibdir. Bu gün biz bu binanın Qərbi Azərbaycan İcmasına verilməsini qeyd edirik.

Bildiyiniz kimi, avqust ayında Azərbaycan Qaçqınlar Cəmiyyəti Qərbi Azərbaycan İcmasına çevrilmişdir və mən hesab etdim ki, ən düzgün yer, ən düzgün qərargah məhz bu bina olmalıdır. Təkcə ona görə yox ki, bu, çox gözəl binadır, dördmərtəbəlidir və burada fəaliyyət göstərmək üçün bütün imkanlar var, Heydər Əliyev Mərkəzi ilə demək olar ki, üzbəüz yerləşir. Əsas səbəb o idi ki, burada vaxtilə yerləşmiş Qarabağın məcburi köçkünlər icması artıq öz torpaqlarına qayıdır. Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar.

Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır. Bu gün Zəngilan rayonunun Ağalı kəndinin nümunəsi bunu deməyə əsas verir. Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda, uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir. Əminəm ki, Qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar.

Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var.

Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır.

Xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq üçün, öz tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıq göstərmişdir. Ancaq buna baxmayaraq, tarixin müxtəlif vaxtlarında bizim xalqımız öz doğma torpaqlarından məhrum edilmişdir. XX əsr bu baxımdan xalqımız üçün çox böyük faciələr gətirmişdir. 1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi – İrəvanı Ermənistana faktiki olaraq bağışlamışdır. Bu, bağışlanmaz bir addım idi, bu, xəyanət idi və cinayət idi. Bunu biz hamımız yaxşı bilirik, xalqımız da bunu bilməlidir. Biz heç vaxt tariximizi təhrif etməməliyik.

Tariximizdə şanlı səhifələr də olub, əfsuslar olsun ki, qara səhifələr də olub. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, qısamüddətli fəaliyyəti haqqında mən dəfələrlə öz fikirlərimi bildirmişdim. Azərbaycan Demokratik Respublikasının qurucularının fəaliyyətini yüksək qiymətləndirmişdim. Bu, doğrudan da, dünya miqyasında, müsəlman aləmində ilk respublika idi, baxmayaraq ki, cəmi iki il yaşadı. Ancaq, eyni zamanda, biz bu tariximizin qara səhifələrini də unutmamalıyıq, ört-basdır etməməliyik. Birincisi, tarixi həqiqət təhrif olunmuş formada təqdim edilməməlidir. İkincisi, bu faciəvi hadisə hamımız üçün dərs olmalıdır.

O vaxt bu qərarı müxtəlif səbəblərlə izah etməyə çalışanlar da olub, bu gün də var. Ancaq hesab edirəm ki, heç bir izahat qəbul edilən deyil, çünki ermənilər bu addımla kifayətlənməmişlər. Əgər kimsə hesab edirdi ki, İrəvanı orada yaşayan insanlardan xəbərsiz öz doğma diyarından məhrum etməklə Ermənistan və ermənilər kifayətlənəcək, böyük səhv edirdi və sonrakı tarix bunu bir daha göstərdi. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi.

Yəni, görün, cəmi iki il ərzində xalqımızın başına nə qədər böyük bəlalar gətirildi. Əgər kimsə hesab edirdi ki, 1918-ci ildə İrəvanı Ermənistana verməklə biz hansısa daha böyük bəlalardan özümüzü sığortalamış ola bilərdik, bax, Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi və dediyim kimi xəyanət idi. Hətta səndən güclü olan qüvvə qarşısında heç vaxt geri addım atmamalısan, hər zaman öz hüququnu qorumalısan, xüsusilə doğma torpağını qorumalısan.

Bununla Qərbi azərbaycanlıların faciələri bitmədi. Hamımız yaxşı bilirik ki, 1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalmışdır. Bu, sovet hökumətinin Qərbi azərbaycanlılara və bütövlükdə Azərbaycan xalqına qarşı törədilmiş növbəti cinayəti idi. Bu, eyni zamanda, böyük ədalətsizlik idi, vicdansızlıq idi. Çünki İkinci Dünya müharibəsi cəmi 3 il idi ki, başa çatmışdır. Azərbaycan xalqı böyük fədakarlıq göstərmişdir. Təkcə sovet Azərbaycanından olan insanların 300 mini həlak olmuşdur. O vaxt sovet Ermənistanında yaşamış on minlərlə azərbaycanlı da həlak olmuşdur. Azərbaycan İkinci Dünya müharibəsində faşizm üzərində əldə edilmiş Qələbədə müstəsna rol oynamışdır. Azərbaycan nefti olmasaydı, sovet dövləti heç vaxt qələbə qazana bilməzdi. Bunu hər kəs bilir. Bu rəqəmlər dəfələrlə səsləndirilib. Benzinin, sürtkü yağlarının və neftin təqribən 70, 80, 90 faizi Azərbaycandan təchiz edilirdi. Bütün bunlara baxmayaraq, xalqımıza qarşı növbəti cinayətin törədilməsi, yenə də deyirəm böyük vicdansızlıqdır və saxta bəhanə adı altında xalqımız növbəti deportasiyaya məruz qalmışdır.

Nəhayət, 1980-ci illərin sonlarında sovet hökuməti xalqımıza qarşı növbəti cinayət törətdi. Bu dəfə Ulu Öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçiləri, həm onların sovet hökumətindəki havadarları dərhal hərəkətə keçdilər. Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm ovaxtkı Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı.

Azərbaycanlılar tarixi diyarı olan Qərbi Azərbaycandan deportasiya edildi və biz bu tarixi yaxşı bilirik, xatırlayırıq və azərbaycanlıların yaşadıqları o məntəqələrin sayını da yaxşı bilirik - 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar. Mən ovaxtkı Ermənistanı nəzərdə tuturam, Ermənistan Respublikasını nəzərdə tuturam, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə azərbaycanlılar yaşamışlar. Onların hamısı 3 il ərzində Ermənistandan zorla çıxarıldı, qovuldu, bir çoxları öldürüldü, onlara işgəncələr verildi. Bütün bu cinayətlər sovet hökumətinin gözünün önündə baş vermişdi. Sonuncu kəndimiz Nüvədi 1991-ci ilin avqustunda deportasiyaya məruz qaldı. O da azmış kimi Qarabağda da xalqımıza qarşı cinayət törədildi.

Qarabağın və Şərqi Zəngəzurun işğalı növbəti faciəmiz idi. Yəni, görün, təkcə XX əsrdə xalqımız nə qədər böyük bəlalarla üzləşmişdir. Ancaq sınmadı, əyilmədi, inamını itirmədi, güc topladı və nəticədə istədiyinə nail oldu. İki il bundan əvvəl biz öz tarixi missiyamızı şərəflə yerinə yetirərək ədaləti bərpa etdik, düşmənləri torpaqlarımızdan qovduq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdik. Bu gün azad edilmiş torpaqlarda yaşayırıq, qururuq, yaradırıq, dağıntıları aradan qaldırırıq və dünyaya göstərməyə çalışırıq ki, gəlin, baxın, gözlərinizi açın, bu vəhşilikləri törədən sizin sevimli erməni xalqıdır. Bu cinayətləri hansısa yad planetdən gələnlər yox, sizin sevimli və himayəniz altında olan erməni xalqı törədib, məscidləri dağıdıb, tarixi abidələri dağıdıb, qəbirləri dağıdıb, olmazın vəhşiliklər edib. Eynisini onlar Qərbi Azərbaycanda da ediblər. Sadəcə olaraq, dünya ictimaiyyəti bunu görmür, ya da ki, görmək istəmir. Necə ki, Qarabağda erməni vəhşilikləri faktiki olaraq heç kim tərəfindən təsdiqlənmirdi. Halbuki iki dəfə ATƏT-in faktaraşdırıcı missiyası o vaxt işğal altında olan torpaqlara göndərilmişdi. Ancaq onların məruzəsinə baxdıqda, yenə də ikili standartlar görürük.

Bir tərəfdən, o vəhşilikləri, dağıntıları, qanunsuz məskunlaşmanı etiraf etməyə məcbur oldular, digər tərəfdən yenə də balanslı yanaşaraq işğalçı ilə işğala məruz qalanı necə deyərlər, bir müstəviyə qoydular. Ona görə Qərbi Azərbaycanda ermənilər tərəfindən törədilmiş dağıntılar mütləq dünya ictimaiyyətinə çatdırılmalıdır. Əminəm ki, Qərbi Azərbaycan İcması Azərbaycan dövlətinin dəstəyi ilə bunu edəcək.

Bütövlükdə XX əsrdə xalqımızın çəkdiyi əzablar haqqında dünya ictimaiyyətinə daha geniş məlumat verilməlidir. Biz hər zaman həqiqəti deyirik. Azad edilmiş torpaqlara gələn 10 minlərlə xarici vətəndaş bu gün artıq öz gözləri ilə görür ki, xalqımız hansı vəhşiliklərə məruz qalıb. Bu gün orada gedən genişmiqyaslı quruculuq işləri bir daha xalqımızın iradəsini göstərir. Yenə də deyirəm, Ağalı kəndinin timsalında biz xalqımızın tarixi yaddaşını görürük. Çünki oranı heç vaxt görməyən uşaqlar, gənclər oraya qayıdıblar. Əminəm ki, biz eynisini Qərbi Azərbaycanda da görəcəyik.

Bu il başa çatır. İl ərzində bir çox önəmli hadisələr baş vermişdir. Biz Azərbaycan-Ermənistan sərhədində məcburən hərbi əməliyyat keçirməli olduq. Bu hərbi əməliyyat nəticəsində bizim tarixi şəhərlərimiz bu gün artıq vizual müşahidə yolu ilə gözümüzün önündədir. Bu gün biz artıq Bala Göyçənin sahilindəyik. Bu gün biz Göyçə gölünü binoklsuz görürük. Birincisi, hesab edirəm ki, bu, ədalətlidir. İkincisi, sentyabr toqquşmaları bizi gələcəkdə böyük problemlərdən sığortalayacaq. Çünki Ermənistanda revanşist qüvvələr baş qaldırır, - istər iqtidarda, istər müxalifətdə, - faktiki olaraq bizim üçün fərqi yoxdur. Çünki Ermənistanda cəmiyyətin şüuru o qədər zəhərlənib, azərbaycanofobiya o qədər geniş vüsət alıb ki, orada faktiki olaraq normal düşüncəyə malik olan, - mən siyasi sahəni nəzərdə tuturam, - qalmayıb. Ona görə onlar revanş fikri ilə yaşayırlar. Onlar yenə də ümid edirlər ki, kimsə gələcək onların əvəzinə bizimlə müharibə aparacaq, onlar da hər zaman olduğu kimi, hansısa himayədarın arxasında gizlənərək yenə də bizə qarşı öz məkrli planlarını həyata keçirəcəklər. Bax, özümüzü bundan sığortalamaq üçün biz mütləq Azərbaycan-Ermənistan sərhədi istiqamətində daha əlverişli mövqelərə sahib olmalı idik və buna nail olduq.

Bu gün yerləşdiyimiz yüksəkliklərdən, hətta Naxçıvan dağları da görsənir. Yəni bu, doğrudan da, tarixi nailiyyətdir. Qarabağın, Şərqi Zəngəzurun döyüş meydanında azad edilməsi tarixi hadisədir və Azərbaycan durduqca Azərbaycan tarixində qalacaq. Bu il əldə edilən həm hərbi, həm siyasi uğurlarımız da gələcək üçün zəmin yaradır. Həm qayıdış üçün, həm təhlükəsizlik üçün, həm Azərbaycanı güclü dövlət kimi qəbul etmək istəməyənlər üçün də bir dərs oldu və bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz.

Mən bunu artıq bir neçə dəfə demişəm, bu gün də demək istəyirəm. Bu gün Laçın yolunda baş verən hadisələr növbəti anti-Azərbaycan isterikasına səbəb olub. Burada təkcə Ermənistan yox, bəlkə də, onlardan daha çox onların xaricdəki havadarları, onların arxasında dayanan dövlətlər yenə də Azərbaycana qarşı qarayaxma kampaniyası başlamışdır və biz bu gün görüşdüyümüz vaxtda BMT-də bizə qarşı növbəti təxribat hazırlanır. Artıq bir neçə gündür ki, xüsusi canfəşanlıqla seçilən bəzi ölkələr bizə qarşı növbəti çirkin planlarını həyata keçirmək əzmindədir. Amma hələ ki, bir şey əldə edə bilmirlər, neçə gündür əlləşirlər. Gələn həftə də öz səylərini göstərəcəklər. Yəni Laçın yolunda baş verən hadisə gün kimi aydındır. Bu, bizim legitim hüququmuzdur. Bizim təbii sərvətlərimiz istismar edilir, təbii sərvətlərimiz daşınır. O təbii sərvətlərimizi istismar edənlər istənilən beynəlxalq hüquqi normaya görə cinayətkardırlar. Çünki bu, bizim beynəlxalq birlik tərəfindən tanınmış ərazimizdir və haqlı tələbimiz var ki, bizim ictimaiyyət nümayəndələri və ilk növbədə, ondan əvvəl dövlət qurumlarının nümayəndələri monitorinq keçirməlidirlər. Baxmalıdırlar orada hansı işlər baş verir və o qanunsuz fəaliyyət dayandırılmalıdır. Bizim haqlı tələbimiz bundan ibarətdir. Ancaq bu gün bu vəziyyət tamamilə təhrif edilmiş tərzdə təqdim olunur. Yenə yalan, yenə iftira, yenə böhtan, kim bunu edir, biz hamımız yaxşı bilirik. Yenə də deyirəm, Ermənistan dövləti hazırda burada ilk sıralarda deyil. Amma bu, bizi heç nədən çəkindirməyəcək. Biz artıq bunu dəfələrlə sübut etmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, müharibədən keçən iki il bunu göstərdi. Heç kim bizə təsir göstərə bilməz. Zənglər ola bilər, hansısa bəyanatlar ola bilər, onlara əhəmiyyət vermək lazım deyil. Sadəcə olaraq, siyasi nəzakət naminə biz bu zənglərə cavab veririk. Ancaq bu, bizim mövqeyimizi zərrə qədər dəyişməyəcək.

Hesab edirəm ki, Qərbi Azərbaycan İcmasının bundan sonra daha mütəşəkkil formada fəaliyyət göstərməsi hamımız üçün çox önəmlidir - həm Qərbi Azərbaycandan olan insanlar üçün, həm də bütün Azərbaycan xalqı üçün. Hesab edirəm ki, biz bu işi bundan sonra daha məqsədyönlü şəkildə aparmalıyıq. Yəni, təşkilat qurulub, icma qurulub, dövlət orqanları öz dəstəyini göstərir və göstərəcək. Əlavə göstərişlər mənim tərəfimdən veriləcəkdir. Ona görə hesab edirəm ki, icma bir neçə istiqamət üzrə öz işini davam etdirməlidir. Əlbəttə ki, ölkə daxilində bu icmanın fəaliyyəti daha da gözəgörünən olmalıdır. Hər halda Azərbaycan çərçivəsində bu icmanın fəallığı çox önəmli ola bilər.

Bununla bərabər, hesab edirəm ki, İcmanın bundan az əhəmiyyət kəsb etməyən beynəlxalq müstəvidə fəaliyyəti olmalıdır. Çünki biz bu həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq, necə ki, Qarabağ həqiqətlərini çatdırmışdıq. Faktiki olaraq biz 1990-cı illərin əvvəllərində Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvürü tamamilə dəyişdirə bildik. İnformasiya müharibəsi və İkinci Qarabağ müharibəsi onu göstərdi ki, bu, az əhəmiyyət kəsb etmir. Ona görə burada da İcmanın xaricdəki fəaliyyəti xüsusi önəm daşımalıdır. Sərgilər, təqdimatlar, beynəlxalq konfranslar keçirilməlidir. Azərbaycan diaspor təşkilatları ilə birlikdə aksiyalar keçirilməlidir. Bizim bir çox ölkələrdə diaspor təşkilatlarımız var və bu il biz Şuşada tarixi Azərbaycan diaspor təşkilatlarının qurultayını keçirdik. Xarici ölkələrin siyasi dairələri, mətbuat və qanunvericilik orqanları ilə təmaslar qurulmalıdır. Yəni biz haqlı olaraq öz hüququmuzu tələb etməliyik. Bu, bütün beynəlxalq konvensiyalarda təsbit edilmiş hüquqdur.

Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır. Məsələn, indi bunu artıq dünyada da bilməyə başlayırlar və sual olunur, - bu sualı biz qoymuşuq, Azərbaycan nümayəndələri, bu məsələ ilə məşğul olan insanlar qoyublar, - indi göstərin görək İrəvanın tarixi mərkəzi haradır? Haradadır İrəvanın tarixi mərkəzi? Əgər deyirsiniz ki, guya bu, dünyanın ən qədim şəhəridir. Haradadır bunun tarixi mərkəzi?

İndi baxın, görün, Cənubi Qafqazın digər ölkələrinə - Azərbaycanda, Gürcüstanda, bizim şəhərlərimizdə, əksər şəhərlərdə tarixi abidələr, tarixi mərkəzlər var. İstər Bakı olsun, Gəncə olsun, Naxçıvan, Şəki, Qəbələ, digər bütün şəhərlərdə. Bəs, necə ola bilər ki, İrəvanda tarixi mərkəz yoxdur? Qoy, bu sadə suala cavab versinlər. Cavab da gün kimi aydındır. Ona görə ki, bu tarixi mərkəz Azərbaycan xalqının tarixi irsi idi, hansı ki, onlar dağıdıblar. Şəhərsalma adı altında bütün tarixi binalarımız, o cümlədən İrəvan qalası, Sərdar sarayı dağıdılıb. Yəni bütün bunlar göstərilməlidir. Yəni siyasi və hüquqi tərəfdən başqa, istənilən məsələdə bunun tarixi mahiyyəti də əhəmiyyət kəsb edir. Ona görə bizim işimiz bu tarix üzərində qurulmalıdır.

Hüquqi tərəfə gəldikdə, biz birlikdə fikirləşməliyik, beynəlxalq hüquqşünaslar cəlb edilməlidir. Azərbaycan dövləti burada da kömək göstərəcək. Onlar bu qayıdış istəyini və hüququnu beynəlxalq müstəvidə necə reallaşdırmaq lazımdır yolunu göstərəcəklər.

Əlbəttə ki, bizim tarixi həqiqətlərlə bağlı kitablarımız yenilənməlidir. Müəyyən dövrdə kitablar dərc edilmişdir, o cümlədən tarixi şəhərlərimizin, kəndlərimizin adları ilə bağlı kitab dərc edilmişdir. Siz o kitabın müəllifisiniz. Mən onu görmüşəm. Amma onu indi Azərbaycanda çox adam görübmü? Yox. Bilmirəm o, hansı tirajla dərc edilib. Yəni siz təşəbbüs olaraq bunu özünüz etdiniz, imkanınız çatan tərzdə. Amma biz bunu dövlət səviyyəsində etməliyik. O kitabça bütün dillərə tərcümə edilməlidir. Onun yanında həm də elektron daşıyıcısı olmalıdır. Xarici dillərə tərcümə edilməlidir. Yəni bu təbliğat işləri mütləq aparılmalıdır.

Hesab edirəm ki, ildə bir dəfə, ya da iki ildən bir Bakıda Qərbi Azərbaycanla bağlı beynəlxalq konfrans keçirilməlidir. Biz özümüz üçün dost saydığımız ölkələrdən alimləri, arxeoloqları, tarixçiləri dəvət edəcəyik ki, mötəbər bir beynəlxalq konfrans keçirək, bunu təqdim edək. Yəni bir çox addımlar atılmalıdır ki, bu mövzu gündəlikdən çıxmasın, əksinə bu mövzu beynəlxalq gündəliyə daxil edilsin. Çünki bu gün Ermənistan monodövlətdir. Biz bunu deyəndə, haqlı olaraq dünya ictimaiyyətinə bildiririk ki, bu, dözülməzdir. İndi Avrasiya məkanında, yerləşdiyimiz regionda hansı ölkə monodövlətdir? Bəs, sual olunur nə üçün məhz Ermənistan monodövlətdir? Cavab aydındır, ona görə ki, imkan verməyiblər orada başqa xalqlar yaşasın. O xalqları oradan müxtəlif yollarla çıxardıblar, kimi öldürüblər, kimi hədələyiblər, kimin evini yandırıblar. Beləliklə, bütün başqa millətləri oradan qovub, başqasının torpağında özləri üçün dövlət qurublar. Bu ərazidə heç vaxt Ermənistan olmayıb. İndiki Ermənistan bizim torpağımızdır. Mən bunu dəfələrlə deyəndə, mənə irad tuturlar, çalışırlar irad tutmağa ki, mənim ərazi iddiam var. Mən bunu tarixi həqiqət kimi deyirəm. Əgər kimsə başqa versiyanı təsdiq edə bilsə, gəlsin təsdiq etsin.

Erməni xalqı nə vaxt bizim torpaqlarımıza köçürülüb? Hamımız yaxşı bilirik. Qarabağa nə vaxt köçürülüb? Zəngəzura nə vaxt köçürülüb? Kim tərəfindən köçürülüb? Necə köçürülüb və hansı məqsədlə köçürülüb? Hamısını yaxşı bilirik. Onların bizim ərazimizdə, Cənubi Qafqazda heç vaxt dövləti olmayıb. Əgər nə vaxtsa olubsa, - hələ bəlli deyil kimin dövlətini onlar öz adlarına çıxmaq istəyirlər, - bu, başqa yerdə olub. Ona görə, biz bunları mütləq məqsədyönlü şəkildə, təşkilatlanmış qaydada, düzgün formada təqdim etməliyik. Əminəm ki, buna nail olacağıq.

Mən bununla paralel olaraq hesab edirəm ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur. Əlbəttə ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq bəlkə də tez idi. Ancaq, məncə, bu gün biz vaxt itirməməliyik. Qayıdış Konsepsiyası hazırlanmalıdır. Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik. Qayıdış Konsepsiyası olmalıdır. Bizim tarixi yaşayış yerlərinin bir çoxu, mütləq əksəriyyəti indi bomboşdur. Biz bunu bilirik. Biz öz keçmişimizi yaxşı bilirik. Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerləri yaxşı bilir. İndi müxtəlif yollarla bu informasiyanı əldə etmək olar. Azərbaycanlıların yaşadıqları yerlərin əksəriyyətində heç kim yaşamır. Ermənistanda bütövlükdə indi depopulyasiya dövrü hökm sürür. İnsanlar oradan gedir. Həm təbii artım yoxdur, eyni zamanda, dözülməz siyasi vəziyyət, repressiyalar, faktiki olaraq diktatura və iqtisadi çətinliklər onları buna vadar edir. Bizim kəndlərimiz dağıdılır. Biz buna dözə bilmərik. Ona görə biz Qayıdış Konsepsiyası üzərində işləməliyik. Bu, çox sanballı sənəd olmalıdır. Əlbəttə ki, mütləq digər təkliflər də olacaq.

Mən, sadəcə olaraq, bu gün bu görüş əsnasında gələcək fəaliyyətinizlə bağlı öz fikirlərimi bölüşmək istərdim.
Əlbəttə ki, mən sizdən də təkliflər gözləyəcəyəm. İcma həm öz imkanları daxilində, həm də Azərbaycan dövlətinin dəstəyi ilə bu işlərə, necə deyərlər, böyük yer verməlidir. Əminəm ki, biz buna nail olacağıq.
Bir daha onu da bildirməliyəm ki, bu yer icma üçün təsadüfən seçilmədi, rəmzi mənası var. Bu binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən Qərbi azərbaycanlılar da qayıdacaqlar, İnşallah.





# QAYIDIŞ KONSEPSİYASI

İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya

1. Giriş. 1989-cu ildə "Azərbaycan Qaçqınlar Cəmiyyəti" kimi təsis edilmiş, 2022-ci ildə "Qərbi Azərbaycan İcması" adını almış təşkilat (İcma) indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hüquqlarının müdafiəsi ilə məşğuldur. Bu Konsepsiya indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün İcmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

2. Problemin təsviri. Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürmə və soyqırımılarından böyük əziyyət çəkmişdir. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatmışdır. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə müstəsna olaraq ermənilər yaşayır. Azərbaycanlılara qarşı törədilmiş etnik təmizləmə əksər hallarda dövlət orqanlarının sistemli fəaliyyəti ilə zorakılıq, soyqırımı, kütləvi qətliam və insanlıq əleyhinə digər cinayətlər və insan hüquqlarının kobud pozulması yolu ilə həyata keçirilib. Bu proses 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xüsusilə şiddətli və amansız olub. Bu aktların, o cümlədən 1918-21-ci illərdə "Ermənistan respublikası", "Dağlıq Ermənistan respublikası" adlanan qurumların, Sovet İttifaqının, ələlxüsus, Zəngəzur daxil olmaqla azərbaycanlıların üstünlük təşkil etdiyi bir çox bölgələri Ermənistana vermiş və yüz min azərbaycanlının Ermənistandan deportasiyası barədə irqçi qərara imza atmış SSRİ-nin bədnam rəhbəri İosif Stalinin və Ermənistan SSR-nin 1987-91-ci illərdə törətdiyi əməllərin nəticələri hələ də qalmaqdadır. Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus olan tarixi və mədəni irs, o cümlədən məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib, azərbaycanlılara qarşı sistematik xarakterli irqi ayrı-seçkilik həyata keçirilib.

Azərbaycanlılara qarşı etnik təmizləmədə və digər cinayətlərdə iştirak etmiş şəxslər və onların əməlləri Ermənistanda dövlət səviyyəsində şöhrətləndirilir. Presedenti olmayan bu haqsızlıq Ermənistanın hakim dairələrində cəzasızlıq hissi yaratmış və onları Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış ərazilərinə qarşı iddialara, güc tətbiqinə, hərbi işğala, əlavə kütləvi miqyaslı etnik təmizləməyə və insanlıq əleyhinə digər cinayətlərə həvəsləndirib. Azərbaycan Respublikasının Ermənistanın hərbi hücumu və işğalına qarşı 2020-ci ildə apardığı özünümüdafiə əməliyyatının qələbə ilə başa çatması ədalətin bərpa olunması istiqamətində mühüm addım olub və iki ölkə arasında sülh imkanlarını artırıb. Digər tərəfdən, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz evlərinə qayıda bilməməsi, bu ölkədə mono-etnik dövlətçilik, etnik təmizləmə və sistematik irqi ayrı-seçkilik vəziyyətinin davam etməsi böyük ədalətsizlikdir və bu, davamlı sülhün bərqərar olunmasına böyük əngəl törədir.

3. Hədəf, məqsədlər və yanaşma. İcma ötən iki əsr ərzində Qərbi azərbaycanlılara qarşı törədilmiş ədalətsizliyi qəbul etmir və bu ədalətsizliyin nəticələrini rədd edir. İcma Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququna əsaslanmaqla indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına qayıtmalarına şərait yaradılmasını və oraya qayıtdıqdan sonra onların fərdi və kollektiv hüquqlarının təmin edilməsini özünün əsas hədəfi kimi bəyan edir. Konsepsiya ilə həyata keçiriləcək fəaliyyətin əsas məqsəd və prinsipləri aşağıdakılardır:

- İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların könüllü şəkildə, təhlükəsiz şəraitdə və ləyaqətlə öz yurdlarına qayıda bilmələri üçün müvafiq verifikasiya və zəmanət mexanizmi olan və hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşmanın əldə edilməsi;
- Geriyə qayıtma prosesinin müvafiq təhlükəsizlik, humanitar, sosial-iqtisadi yardım proqramları ilə təminat altına alınması;
- Geriyə qayıtmış əhalinin yenidən qovulmasına, onlara qarşı hər hansı ayrı-seçkilik həyata keçirilməsinə və zərər vurulmasına imkan verməmək üçün beynəlxalq monitorinq, hesabatlıq, təhlükəsizlik, müdaxilə və digər zəruri fəaliyyətin bərqərar edilməsi;
- Beynəlxalq nəzarət altında yenidənqurma və barışıq tədbirlərinin həyata keçirilməsi yolu ilə, geriyə qayıtmış insanların davamlı reabilitasiya və re-inteqrasiyasının təmin edilməsi.

Qərbi azərbaycanlıların onilliklər ərzində legitim nümayəndəsi kimi İcma qayıdış prosesində fəal rol oynayacaq, maraqlı tərəf kimi aidiyyəti dövlətlər və beynəlxalq təşkilatlar ilə dialoq və əməkdaşlıq aparmaq və onlar tərəfindən legitim tərəf müqabili kimi tanınmaq üçün səy göstərəcək.

Qərbi azərbaycanlıların onlara uzun müddət ərzində qayğı göstərmiş Azərbaycan ilə xüsusi bağları nəzərə alınmalı və öz yurdlarına qayıtdıqdan sonra onların Azərbaycan Respublikası ilə maneəsiz əlaqəsinə imkan yaradılmalıdır. Qayıdış prosesi Qərbi azərbaycanlıların qovulmadan əvvəlki məskunlaşma konfiqurasiyasını bərpa etməlidir. Qovulmuş azərbaycanlıların qayıdış zamanı müxtəlif bəhanə və hüquqi fəndlərlə pərakəndə səpələnməsi cəhdləri irqçiliyin bir forması və re-inteqrasiyaya maneə olan zərərli yanaşma kimi rədd ediləcək. Bu prinsipdən yayınma ancaq aidiyyəti şəxslərin sərbəst iradəsi və razılığı əsasında baş verə bilər. Qovulmuş şəxsin geriyə qayıtmaq barədə qərarı könüllü olmalı və onun bu qərarı verə bilməsi üçün ona hüquqları və imkanlar barədə tam məlumat verilməlidir. Müvafiq hüququ olan şəxsin geriyə qayıtmaq qərarını ancaq ləyaqətli və təhlükəsiz şəkildə evinə dönməyin mümkün olmasını, o cümlədən, qayıdış prosesi zamanı və qayıtdıqdan sonra həyatını qura bilməsi üçün müvafiq zəmanət və yetərli həcmdə resurs ayrılacağını, tarixi vətənində fərdi və kollektiv hüquqlarının təmin ediləcəyini yəqin etdikdən sonra verə biləcəyi nəzərə alınmalıdır.

Qayıdış prosesi zamanı qadınlar, uşaqlar və sosial baxımdan həssas əhali qrupuna aid edilən şəxslərin maraqları əsas prioritet kimi nəzərə alınacaq, "Qadınlar, sülh və təhlükəsizlik" yanaşması daxil olmaqla bu sahədə beynəlxalq aləmdə qəbul olunan mütərəqqi konsepsiya və standartlar qayıdış prosesində aparıcı yer tutacaq. İcma ötən iki əsr ərzində erməni və Azərbaycan xalqları arasında dərin nifaq olduğunu və Ermənistanın beynəlxalq hüquqa zidd hərəkətləri nəticəsində hal-hazırda əhəmiyyətli sayda insanın təhlükəsizlik problemlərindən əziyyət çəkdiyini anlayır və yaranmış bütün siyasi, təhlükəsizlik, hüquqi, sosial və humanitar problemlərə görə məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü hesab edir. İcma təhlükəsizlik problemlərinin sülh yolu ilə tənzimləməsi zamanı humanitar təcililiyi obyektiv kriteriya kimi qəbul etməklə bərabər, davamlı sülhün bərqərar edilməsində ədalətsizliyin və hüquq pozuntusunun baxılmamış qalma müddətini beynəlxalq diqqətin yetirilməsi üçün əsas kriteriya hesab edir. Belə ki, hüquq pozuntusu və ədalətsizlik nə qədər öz həllini tapmamış qalırsa, bir o qədər cəzasızlıq hissi güclü olur və daha böyük ədalətsizlik törəyir. Bu, öz növbəsində fait accompli və bir ədalətsizliyi daha böyük ədalətsizlik törətməklə unutdurmaq kimi qeyri-insani, zərərli və təhlükəli taktikaları təşviq edir. Bu baxımdan İcma hesab edir ki, böyük haqsızlığa məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının bərpası məsələsi regional təhlükəsizliyin və Ermənistan ilə Azərbaycan arasında münasibətlərin bərpa olunması kontekstində ən ilk sırada baxılmalı olan vəzifədir.

4. Planlama və icranın əsas mövzuları. İcma geriyə qayıtma hüququnun beynəlxalq hüququn və insan hüquqlarının ali prinsipi olmasından çıxış etməklə bərabər, bu prosesin asan olmayacağını nəzərə alır. İcma geriyə qayıtma hüququnun reallaşmasına əsas maneənin Ermənistanın müqaviməti olacağını gözləyir.

Bundan əlavə, qayıtma prosesi əhəmiyyətli ölçüdə hüquqi məsələlərin həllini, təhlükəsizlik komponentini və böyük miqdarda resurs əldə edilməsini ehtiva edir. Bütün bu vəzifələrin həlli Azərbaycan və Ermənistan ilə yanaşı, geniş beynəlxalq ictimaiyyətin dəstəyinin əldə edilməsini tələb edir. İcma repatriasiya prosesinin bütün mərhələlərində mərkəzi rol alacaq və repatriasiya başa çatdıqdan sonra da öz fəaliyyətini davam etdirəcək. Konseptual olaraq, qayıdışın əsas mövzularına dair İcmanın mövqeyi aşağıdakı kimidir.

4.1. Beynəlxalq hüquqi çərçivə və zəmanət. İndiki Ermənistan ərazisindən azərbaycanlıların qovulması məsələsini presedentsiz ədalətsizlik kimi beynəlxalq ictimaiyyətin gündəliyinə gətirmək, bu vəziyyətin davam etməsinin beynəlxalq sülh və təhlükəsizliyə təhdid kimi qəbul etdirməyə nail olmaq və davamlı sülh və ədalətin bərqərar olması üçün azərbaycanlıların geriyə qayıtma hüququnu təmin edən, hüquqi baxımdan məcburi olan, müvafiq verfikasiya və zəmanət mexanizmini ehtiva edən qərar və razılaşmaların əldə edilməsi ilk vəzifədir.
Bu məqsədlə, İcma Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların öz vətənlərinə qayıtmasına şərait yaratmağın Ermənistanın öhdəliyi kimi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsində də təsbit olunmasına çalışacaq. Qayıdışın beynəlxalq hüquqi çərçivəsinin formalaşdırılması üçün İcma Azərbaycan Respublikası hökuməti, Ermənistan Respublikası hökuməti, BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlər, region ölkələri və digər aidiyyəti dövlətlər və təşkilatlar ilə təmaslara başlayacaq.

4.2. İcmanın üzvlərinin müəyyən edilməsi və siyahıyaalınması. İndiki Ermənistan ərazisindən qovulmuş bütün azərbaycanlılar və onların törəmələrinin öz vətənlərinə qayıtmaq hüququ var. İcma Azərbaycan Respublikasının və Qərbi azərbaycanlıların məskunlaşdığı digər dövlətlərin əhali reyestri xidmətlərinin yardımından istifadə edərək və müvafiq beynəlxalq metodologiya əsasında İcma üzvlərinin siyahıyaalınmasını həyata keçirəcək. Bu cür siyahıyaalınmada effektiv vasitələrdən birinin aidiyyəti şəxslərin özünü təqdim etməsi olduğunu nəzərə alaraq, onları bu addıma təşviq etmək üçün vətənindən qovulmanın ciddi hüquq pozuntusu olması barədə geniş informasiya kampaniyası aparılacaq və təhlükəsiz və ləyaqətlə geri qayıtmaq yanaşmasının mahiyyəti geniş ictimaiyyətə izah ediləcəkdir.

4.3. Qayıdış planının hazırlanması. İcma qayıdış prosesinin nizamlı və effektiv şəkildə həyata keçirmək məqsədilə müvafiq beynəlxalq icraçı tərəfdaş tapmaq üçün səy göstərəcək. Bu tərəfdaşın BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının olmasına üstünlük veriləcək. İcma beynəlxalq icraçı tərəfdaş ilə birlikdə, tətbiq oluna bilən beynəlxalq standartlar əsasında, Azərbaycan hökuməti və Ermənistan hökuməti ilə təmaslar şəraitində qayıdışın detallı planını hazırlayacaq.

Qayıdış planı  tələb olunan addım və resurslar, dəqiq zaman çərçivəsi göstərilməklə prosesin mərhələlərini və istiqamətlərini təsvir etməlidir.

4.4. Ermənistanın hüquqi çərçivəsinə münasibət. Qərbi azərbaycanlılar "Ermənistan Respublikası" adlanan siyasi-hüquqi vahidin effektiv nəzarət etdiyi ərazidən zorla qovulduqları üçün bu dövlətin  təşəkkül tapmasında, onun konstitusion çərçivəsinin və milli və hüquqi xarakterinin formalaşması prosesində iştirak imkanından məhrum ediliblər. İcma Ermənistan Respublikasının Birləşmiş  Millətlər Təşkilatının (BMT) üzvü olduğunu, digər dövlətlərin əksəriyyəti tərəfindən tanındığından agahdır və Ermənistan Respublikasını siyasi-hüquqi  reallıq kimi görür. Ermənistanın BMT-nin Nizamnaməsi daxil olmaqla müvafiq beynəlxalq hüquqi sənədlərə qoşulmuş olması bu ölkənin üzərinə onun  ərazisindən qovulmuş azərbaycanlıların sülh yolu ilə  öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına şərait  yaratmaq daxil olmaqla onların hüquqlarının bərpası  və qorunması sahəsində konkret öhdəliklər qoyur. İcma Qərbi azərbaycanlıların Ermənistanın hüquqi  sistemi ilə və onun çərçivəsində fərdi və kollektiv  qisimdə mümkün fəaliyyətini praktiki məsələ kimi  görür, bunu ölkənin ərazisində azərbaycanlılara qarşı  törədilmiş hər hansı ədalətsizliyi və hüquqa zidd hərəkəti qəbul etmək, qanuni maraqlarından imtina  etmək mənasında təfsir və qəbul edilməsini rədd edir.
Ermənistan Respublikası özünün milli hüquqi  çərçivəsini azərbaycanlı icmasına əlçatan etməli,  azərbaycanlıların bərabər hüquqlarını təmin etməli,  onların ana dillərində təhsil almasına, qanunvericilik,  icra və məhkəmə orqanlarında Azərbaycan dilindən  istifadəsinə imkan yaratmalı və azərbaycanlıların hüquqlarının qorunmasını tam təmin etmək məqsədilə  özünün qanunvericiliyinin təkmilləşdirilməsi üçün müvafiq beynəlxalq qurumların hüquqi məsləhət,  monitorinq və nəzarət mexanizmi çərçivəsində İcma  ilə konstruktiv dialoqa başlamalıdır. İstənilən halda, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlılar öz vətənlərində yaşamaq hüququna malikdirlər, bu hüquq əzəlidir, toxunulmazdır,  mütləqdir və həlledici faktordur. Şəxsiyyəti, mülkiyyət hüququnu və digər hüquqları təsdiq edən sənədlərin Ermənistan tərəfindən təqdim edilməsi bu hüququ  yaratmır, verilməməsi bu hüququ aradan qaldırmır.  Belə sənədlərin verilməsi sadəcə formal-texniki məsələ olmaqla hazırda sözügedən ərazilərə nəzarət  edən Ermənistan Respublikasının qeyd-şərtsiz yerinə yetirməli olduğu bir öhdəlikdir.

4.5. Təhlükəsizliyin təmin olunması. Ermənistan hökumətinin azərbaycanlı əhaliyə qarşı etnik əsaslarla genişmiqyaslı və sistematik  zorakılıq törətmiş olması səbəbindən İcma təhlükəsizlik məsələlərində bu dövlətə etibar etmir və ona  görə də müvafiq mandatla və Qərbi azərbaycanlıların etimad göstərdiyi ölkələrin qüvvələrindən ibarət  beynəlxalq təhlükəsizlik missiyasının qayıdış olacaq  ərazilərə yerləşdirilməsini zəruri hesab edir. Beynəlxalq missiyanın səlahiyyəti və imkanları təhlükəsizlik vəziyyətindən asılı olacaq.

Təhdidlərin qiymətləndirilməsinin müvafiq informasiya toplama və təhlil imkanları tələb etməsini, İcmada bu imkanların olmadığını nəzərə alaraq, İcma bu məsələdə Azərbaycan Respublikası hökumətinin yardımına ümid edir. İcma bu məsələdə Azərbaycan hökumətinin təqdim edə biləcəyi təhdidlərin qiymətləndirilməsini əsas götürəcək. Missiya qayıdışdan əvvəl yerləşdirilməli, müvafiq əraziləri nəzarətə götürməli, mülki-hərbi əlaqə, polis və mülki idarəetmə səlahiyyətinə malik olmalı, İcmanın zəruri hesab etdiyi müddətdə fəaliyyət göstərməlidir. İcma beynəlxalq təhlükəsizlik missiyasının mandatının formalaşdırılması və idarə edilməsi üzrə formatda maraqlı tərəf kimi təmsil olunmalıdır. Hüquq-mühafizə və ədliyyə məsələlərində adekvat iştirakın zəruri şərt olduğunu nəzərə alaraq, azərbaycanlıların yerli təhlükəsizlik qüvvələrini formalaşdırmasına və məhkəmələrdə müvafiq rol almasına şərait yaradılmalıdır.

4.6. Mülkiyyət məsələləri. Azərbaycanlılara qarşı törədilmiş bütün hüquq pozuntuları kimi mülkiyyət hüququnun pozulmasının nəticələrinin aradan qaldırılmasına görə də Ermənistan hökuməti məsuliyyət daşıyır. Ermənistan hökuməti azərbaycanlılara məxsus mülkiyyətin və icma torpaqlarının qaytarılmasını təmin etməli, mülkiyyətə vurulmuş zərərə və mülkiyyətdən istifadənin qarşısının alınmasına görə yaranmış itkilərə görə kompensasiya ödəməlidir. Ermənistan hökuməti azərbaycanlıların mülkiyyət hüquqlarının bərpasından irəli gələn bütün xərcləri ödəməli və digər lazımi tədbirləri görməlidir.

4.7. Re-inteqrasiya və reabilitasiya. Repatriasiya etmiş azərbaycanlılar qayıtdıqdan sonra ilk dövrlər humanitar yardıma, sonra uzunmüddətli sosial və iqtisadi inkişaf üçün re-inteqrasiya və reabilitasiya proqramına və yardımlara ehtiyac duyacaqlar. İcma bu sahədə müvafiq proqram həyata keçirmək üçün beynəlxalq qurumlar və donorların əsas tərəf müqabili olmaqda qərarlıdır. Re-inteqrasiya və reabilitasiya tədbirlərinin uğurunun təmin edilməsində yaşayış məskənləri daxilində sosial bağlar və dinamika vacib əhəmiyyət kəsb edir. Təcrübə göstərdiyi kimi, qovulmadan əvvəlki məskunlaşma konfiqurasiyasının qorunub saxlanması sosial bağların bərpasını və beləliklə re-inteqrasiya və reabilitasiyanı asanlaşdırır. Bu baxımdan, qovulmadan əvvəlki məskunlaşma konfiqurasiyasının qorunub saxlanması insan hüquqlarının bir tələbi olmaqla bərabər re-inteqrasiya və reabilitasiyanın uğuru üçün zəruri şərtdir.

4.8. Mədəni irsin bərpası və qorunması. İcma BMT-nin ixtisaslaşmış qurumlarının iştirakı ilə Ermənistan ərazisində azərbaycanlılara məxsus mədəni irsin vəziyyətinin dəyərləndirilməsinə, o cümlədən, zərər vurulmuş və yer üzündən silinmiş mədəni irs nümunələrinin siyahısının hazırlanmasına və Ermənistan hökumətinin onları bərpa etmək və qorumaq öhdəliyini icra etməsinə nail olmaq üçün səy göstərəcək.

4.9. Etnik icmalar arası barışıq. Qərbi azərbaycanlılara qarşı böyük haqsızlıq törədilib. Bu haqsızlıq etnik təmizləmə ilə məhdudlaşmır. Qərbi azərbaycanlıların evlərinə başqa yerdən insanlar köçürülüb. Bu ağrılı keçmişi tarixi yaddaşında saxlamaqla bərabər İcma qəbul edir ki, sülh və inkişafın təmin edilməsinin yolu barışıqdan keçir. Qərbi azərbaycanlılar onların vətəninə başqa ölkələrdən köçürülmüş ermənilərlə dinc və yanaşı yaşamağa hazırdır. İcma barışığa nail olmağın uzun müddət tələb edəcəyini və mürəkkəb olacağını gözləyir. İcma insan hüquqlarına hörməti, hüququn aliliyini və ikili standartların aradan qaldırılmasını barışın əldə edilməsi üçün ən mühüm vasitələr kimi görür. Bu baxımdan, İcma Ermənistanın azərbaycanlılara qarşı nifrət və ayrıseçkiliyi aşılayan siyasət və praktikasını dayandırmasına, azərbaycanlılara qarşı cinayət törətmiş şəxsləri ədalət məhkəməsinə təslim etməsinə, onları şöhrətləndirməyə dərhal son verməsinə, o cümlədən, azərbaycanlılara qarşı cinayətlərdə iştirak etmiş hərbi və siyasi xadimlərə, terrorçulara qoyulmuş abidələri sökməsinə və aparılmış yer adları dəyişiklərini ləğv etməsinə nail olmaq üçün səylər göstərəcək.

4.10. İcmanın uzunmüddətli fəaliyyəti. İcma hesab edir ki, onun missiyası təkcə qayıdış məsələsi ilə məhdudlaşmır. İcma əhali öz vətəninə qayıtdıqdan sonra da təşkilat kimi öz fəaliyyətini, o cümlədən orada yaşayacaq azərbaycanlıların maraqları, hüquqları, inkişafı və təhlükəsizliyinin təmin edilməsi üzrə mütəşəkkil səylərini, bu məqsədlə, Azərbaycan Respublikası, xarici dövlətlər və beynəlxalq təşkilatlar, eləcə də Ermənistan hökuməti ilə və Ermənistan ictimaiyyəti ilə dialoq və qarşılıqlı fəaliyyətini davam etdirmək niyyətindədir.

5. Yekun müddəalar. İcma bu konsepsiyanın yerinə yetirilməsində fəallıq və sahiblik göstərəcək, bu məqsədlə qanuni çərçivədə resursların əldə edilməsi üçün səylər göstərəcək. İcma vəziyyətin mümkün dəyişməsindən asılı olaraq, konsepsiyaya dəyişiklik edə bilər.

# QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ KONSEPSİYASI SÜLH VƏ ƏDALƏT KONSEPSİYASI KİMİ




Azərbaycan xalqı son 200 illik tarixinin əlamətdar və yaddaqalan günlərini yaşayır. Belə bir tarixi anları yaşamaq, tarixi günlərdə ölkənin vətəndaşı olmaq qürurvericidir. Ona görə ki, Azərbaycan bu çətin regionda, dünyanın siyasi mənzərəsində baş verən mürəkkəb proseslər dövründə hər gün sürətlə inkişaf edir, öz dinamik sürəti ilə model formalaşdırır, region və bölgənin davamlı inkişafına çalışır. 44 günlük Vətən Müharibəsində əldə etdiyimiz parlaq qələbədən sonra yaranmış yeni reallıq, soydaşlarımızın işğaldan azad edilmiş doğma torpaqlara və tarixi ərazilərimiz olan Qərbi Azərbaycana qayıdışı məsələsidir.

Bunun üçün Naxçıvan Dövlət Universitetinin təşəbbüsü ilə 23-24 noyabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə ölkəmizin ali təhsil müəssisələri və Türkiyədən olan 20-dən çox qurumun tərəfdaşlığı ilə ilk dəfə olaraq “Qərbi Azərbaycana qayıdış” festival-konqresi keçirilir.

“Qərbi Azərbaycana qayıdış” festival-konqresinin keçirilməsində əsas məqsəd tarixi ədalətin bərpa edilməsi yolunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yurd-yuvasından didərgin, qaçqın düşmüş azərbaycanlıların tarixi hüquqlarının bərpasına istiqamətlənmiş siyasətinin elmi əsaslarla həm yerli, həm də beynəlxalq səviyyədə işıqlandırılmasına nail olmaq, ölkənin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, eyni zamanda qardaş Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçıları bir araya gətirmək, onların Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yenilikləri dinləmək, fikir mübadiləsi aparmaq, Ermənistan Respublikasının inzibati sərhədləri daxilindəki qədim yurd yerlərimiz olan Qərbi Azərbaycan torpaqlarında xalqımızın min illərlə yaratdığı mədəniyyəti təbliğ etmək, Qərbi Azərbaycana qayıdış prosesinə elm və təhsil ictimaiyyətinin dəstəyini ifadə etməkdən ibarətdir.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin 2022-ci il dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə müəyyənləşdirdiyi tapşırıqlar və qayıdış konsepsiyası, əsasən, ziyalılar qarşısında mühüm vəzifələr formalaşdırır. Bu görüşdə dövlət başçımız tərəfindən səsləndirilən fikirlər xalqımızın tarixində yeni bir dövrün başlandığını xəbər verdi. Dövlətimizin başçısı soydaşlarımızın öz doğma torpaqlarına qayıtması ilə bağlı yeni milli strateji hədəfləri açıqladı.

İnkaredilməz faktdır ki, 1828-ci ildə bağlanan "Türkmənçay" müqaviləsinin nəticəsi olaraq ermənilər İrandan, Türkiyədən bu ərazilərə köçürülmüşdür. Bu tarixi faktlar erməni və rus mənbələrində öz əksini aydın şəkildə tapmışdır. Azərbaycanda məskunlaşdırılma siyasəti isə qabaqcadan müəyyən edilmiş münbit, strateji cəhətdən "Qərbi Azərbaycana qayıdışa gedən yol" Konqres, 23-24 noyabr 2023, Naxçıvan şəhəri 30 əlverişli, bol təbii resurslara malik Azərbaycan torpaqlarında kompakt şəkildə ermənilərin məskunlaşdırılması kimi nəzərdə tutulurdu. Gizli erməni-rus razılaşmasına əsasən, hətta ən adi erməni millətindən olanların belə azərbaycanlıların əmlakını əlindən almaq, zor tətbiq edərək yaşadığı ərazidən qovmaq və öldürmək hüquqları var idi. Bu siyasət az sonra Cənubi Qafqazda erməni separatizminin və erməni terrorunun daha da güclənməsinə və inkişaf etdirilməsinə gətirib çıxardı.

Beləliklə də bu ərazilərin gerçək sahibi olan azərbaycanlılar zaman-zaman - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. Daha sonra sovet hakimiyyəti dövründə azərbaycanlıların indiki Ermənistandan dövlət səviyyəsində, özü də SSRİ adlanan nəhəng imperiya tərəfindən deportasiyası köçürmə adı ilə həyata keçirilmişdir. SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də "Ermənistan SSR-dən kolxozçuların və başqa əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı, 1948-ci il martın 10-da isə həmin qərara əlavə olaraq qəbul edilən "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlıların Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı qərarlarına əsasən 150 min azərbaycanlı tarixi-etnik torpaqlarından - Ermənistandan deportasiya edilmişdir. Əvəzində isə indiki Ermənistan ərazisinə sovet dövründə üzərinə "məxfi" qrifi qoyulmuş qərarla xaricdən 500 min erməni köçürüldü. Həmin 500 min erməni məhz Zəngəzur ərazisinə yerləşdirildi. 1921-ci ildən etibarən 1929-cu il fevralın 29-na qədər Qərbi Zəngəzur Azərbaycan xalqının iradəsi olmadan, heç bir referendum keçirilmədən hissə-hissə Ermənistana verildi. Bununla da Naxçıvan ilə Azərbaycan arasında əlaqə də kəsildi. Hadisələrin sonrakı gedişi göstərdi ki, bu, Naxçıvanı da işğal etmək niyyəti ilə bağlı idi.

Azərbaycanlıların Ermənistan ərazisində yerləşən qədim ata-baba yurdlarından sonuncu deportasiyasından artıq 35 il ötür. Belə ki, bu deportasiya zamanı 300-ə yaxın yaşayış məntəqəsindən 50 mindən artıq ailədən 300 minə yaxın soydaşımız zorla qovulub, 200-dən artıq soydaşımız vəhşicəsinə qətlə yetirilib, 400 nəfərdən artıq insan yaralanıb, bir çoxlarının evləri, əmlakları yandırılıb, yandırılmayanlar ermənilər tərəfindən əvəzi ödənilmədən qəsb edilib, 300-dən artıq məscid, ocaq, ziyarətgah, 500-dən artıq qəbiristanlıq yer üzündən silinib. 1988-ci ildə Ermənistandan qovulan qaçqınlara dəyən ümumi maddi ziyan 20 milyard ABŞ dollarından artıq təşkil edir ki, beynəlxalq qiymətləndirmə standartlarına görə 35 ildən sonra bu gün bu rəqəm 1 trilyon ABŞ dollarına çatmaqdadır. Soydaşlarımıza dəyən mənəvi ziyanın qədəri isə ölçüyə gəlməzdir.

Bu tarixi faciələrə vaxtında hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyev bu tarixi ədalətsizliyə, faciələrə hüquqi-siyasi qiymət vermiş və bununla bağlı 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci il avqustun 22-də "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanlar imzalamışdır. Araşdırmalar zamanı aydın olmuşdur ki, vandalizm həm də mədəniyyət abidələrini məhvinə səbəb olmuş, onun tarixini dəyişdirmək, restavrasiya adıyla qədimliyinə zərbə vurmaq kimi barbarlıq siyasəti yürüdülmüşdür.

Ümumilikdə, indiki Ermənistan ərazisində xalqımıza məxsus 3 min 500 tarix və mədəniyyət abidəsi, 500 qəbiristanlıq, 391 məscid qəddarlıqla dağıdılmış, tamamilə yox edilmişdir.

Tədqiqatlar göstərdi ki, hələ 1828-ci ildə rus çarı I Nikolayın fərmanı ilə Alban kilsəsi ermənilərə tabe etdirildikdən dərhal sonra, ermənilər albanlara məxsus mədəni irsi, erməni "mədəniyyətinə" aid olduğunu elan etdilər. Onlar, eyni zamanda alban dövrü yazılı məlumatlarını da erməni dilinə tərcümə edərək materialların əslini məhv etməyə başladılar.

O dövrdə Şavrov Rusiyanın Cənubi Qafqazdakı müstəmləkəçilik siyasətində ermənilərdən istifadə edilməsinə etiraz olaraq yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətimizə Zaqafqaziyada rusların deyil, bizə yad olan bir millətin yerləşdirilməsindən başladıq. Onları, həmçinin Tiflis quberniyasının Borçalı, Axıska və Axilkələk qəzalarında yerləşdirdik. Nəzərə almaq lazımdır ki, 124 min rəsmi köçürülən ermənilərlə yanaşı, qeyri-rəsmi şəkildə köçənlər də çox olmuşdur və ümumiyyətlə, köçənlərin sayı 200 min nəfərdən xeyli artıqdır". N.Şavrov daha sonra qeyd edirdi ki, XX əsrin əvvəllərində Zaqafqaziyada yaşayan bir milyon üç yüz min erməni əhalinin bir milyonu yerli əhali deyil, rusların vasitəsilə məskunlaşdırılanlardır. Bütün bu məskunlaşdırılma siyasəti keçən əsrin əvvəllərində Quba, Şamaxı, Şuşa, Gəncə şəhərlərində, Qarabağ və Zəngəzur regionlarında türklərə qarşı törədilən qırğınların kütləviləşməsinə səbəb oldu.

Daha dərin tarixi tədqiqatlar sübut etdi ki, əslində bütün rus çarları erməni köçünü xarici siyasətin bir aləti kimi istifadə etmiş, hər fürsətdə onların xeyrinə qərarlar qəbul edərək özləri üçün bir növ sosial dayaq yaratmaq niyyəti güdmüşlər. Belə ki, 1723-cü ildə Rusiya çarı I Pyotr 12 sentyabr tarixli müqavilə əsasında Bakı, Dərbənd və Quba ərazilərinə ermənilərin köçürülməsi üçün xüsusi yerlər ayrılması barədə fərman imzalayıb.

1726-cı ildə II Yekaterina ermənilərə xüsusi mərhəmət göstərməyin və onları himayə etməyin zəruriliyini ifadə edən fərman verib. 1729-cu ildə Rusiya çarının fərmanı ilə bir qrup erməni məliyi Rusiya təbəəliyinə qəbul olunub. 1799-cu ildə çar I Pavel ermənilərin Qazax ərazisində məskunlaşdırılmasına kömək üçün Kartli-Kaxetiya çarlığına xüsusi göstəriş verib.

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi nəinki ayrı-ayrı fərmanlarda və göstərişlərdə, hətta dövlətlərarası sazişlərdə belə öz əksini tapırdı. 1828-ci ildə Rusiya ilə İran arasında imzalanmış Türkmənçay sülh müqaviləsində belə bir maddə də öz əksini tapmışdı ki, İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiya ərazisinə keçmək hüququ verilir.

I Nikolay 21 mart 1828-ci il tarixli fərmanı ilə ermənilərin üstündən qul adını götürüb. Həmin vaxta kimi ermənilər yer üzündə rəsmən qul adlanan millət olaraq qalıb.

Bu hadisələrin böyük əksəriyyəti tarixi Azərbaycan torpaqlarında, xüsusilə Qərbi Azərbaycan ərazilərində gerçəkləşdirildiyini nəzərə alaraq konqresimizin əsas müzakirə və təqdimatları da məhz uzun illər araşdırılmasına məhdudiyyətlər qoyulmuş bu problemlərə həsr olunacaqdır. Qərbi Azərbaycan toponomikası, mədəniyyəti, abidələri ilə bağlı, Qərbi Azərbaycan folkloru ilə bağlı kifayət qədər əlimizdə dəlillər, sübutlar var ki, bu konqresdə 200-ə yaxın məruzədə bu elmi dəlillərin, sübutların bir çoxu elmi dövriyyəyə maraqlı faktlar təqdim edəcəkdir. Qədim türk mədəniyyət hadisələrinin tarixi şahidi olan bu bölgənin mədəni irsi bütövlükdə ümumtürk və ümummüsəlman kontekstində də tədqiqata cəlb edilməsi üçün kifayət qədər maddi tarixi sübutlar mövcuddur.

VII əsr ədəbi abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanının coğrafi mühiti həm də Qərbi Azərbaycanla bağlıdır. Dastanda adı çəkilən Şirökuvən, Altuntaxt, Göyçə gölü oğuz qəhrəmanlarının doğma yurdları olmuşdur və bu ərazilər indi Ermənistan adlanan Qərbi Azərbaycanın ərazisi daxilində yerləşir. XIX əsrin əvvəllərindən başlayaraq 1994-cü ilə kimi Qərbi Azərbaycan ərazisində olan bu türk mənşəli oykonimlərin, oronimlərin və hidronimlərin adları dəyişdirilərək erməniləşdirilmiş və ya ruslaşdırılmışdır.

Festival-konqres adından göründüyü kimi iki hissədən ibarətdir, festivalımızda Naxçıvan Muxtar Respublikası ərazisində məskunlaşmış Qərbi azərbaycanlıların yaşatdığı ənənələri, mədəni dəyərləri, sənət əsərlərini, şəxsi kolleksiyalarında qoruduqları arxiv sənədlərini, eyni zamanda özləri ilə gətirdikləri müxtəlif maddi-mədəni sübutların sərgisi təşkil edilmişdir.

Bu gün əslən Qərbi Azərbaycandan olan Naxçıvanda yaşayan insanlar könüllü olaraq bu festival-konqresin ətrafında birləşib. Bizim əlimizdə alimlərimiz üçün kifayət qədər sübutlar var ki, samballı elmi əsərlər ortaya qoya bilək və Qərbi Azərbaycanı bütövlükdə ictimaiyyətimizə təqdim edə bilək. Bizim festivalın folklor bölümündə mədəniyyət xadimləri ilə bərabər, eyni zamanda Qərbi Azərbaycandan köçürülmüş Naxçıvanda yaşayan insanların iştirakı da nəzərdə tutulmuşdur. Bu təqdimatlar bir daha onu göstərir ki, Qərbi Azərbaycanda yaşayan insanlarımız öz yurd-yuvalarına tarixən olduğu kimi, bu gün də qəlbən bağlıdırlar.

Əminik ki, Müzəffər Ali Baş Komandanın qətiyyət və iradəsi, Azərbaycan xalqının müdrikliyi və sülhsevərliyi Qərbi Azərbaycana qayıdış konsepsiyasının uğurlu həllini təmin edərək həm də beynəlxalq hüququn, ədalətin bərpasına da öz müsbət töhfəsini verəcəkdir.

**Elbrus İSAYEV**

*Naxçıvan Dövlət Universitetinin rektoru,*

*tarix üzrə fəlsəfə doktoru, dosent*

# Festival-Konqresin Gündəliyi
## *23.11.2023*

| | | |
|---|---|---|
| *Rəsmi Hissə* | *09:30-10:30* | Ümummilli Lider Heydər Əliyevin abidəsi və muzeyini ziyarət |
| FESTİVAL-KONQRESİN RƏSMİ AÇILIŞ TƏDBİRİ<br>*(NAXÇIVAN DÖVLƏT MİLLİ MUSİQİLİ DRAM TEATRI)* | | |
| *Festivalın Açılış Tədbiri* | *11:00-11:03* | Dövlət Himni |
| | *11:03-11:10* | Kompozisiya |
| | *11:10-11:15* | Qərbi Azərbaycana həsr olunmuş videoçarx |
| | *11:15-11:30* | **Festivalın açılış nitqi:** Fuad Nəcəfli<br>*Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi* |
| | *11:30-11:45* | **Çıxış:** Emin Əmrullayev<br>*Azərbaycan Respublikasının Elm və Təhsil naziri* |
| | *11:45-11:55* | **Çıxış:** Elbrus İsayev<br>*Naxçıvan Dövlət Universitetinin rektoru* |
| | *11:55-12:10* | **Çıxış:** Əziz Ələkbərli<br>*Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı* |
| | *12:10-12:20* | **Çıxış:** Səbinə Əliyeva<br>*Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)* |
| | *12:20-12:30* | **Çıxış:** Professor Mahirə Hüseynova<br>*Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun prorektoru* |
| | *12:30-13:45* | Bədii Hissə |
| | *13:45-14:00* | Qərbi Azərbaycan kulinariyasının təqdimatı (Dövlət Qonaq Evində) |
| | *14:00-15:00* | Nahar fasiləsi (Dövlət Qonaq Evində) |
| FESTİVAL (HEYDƏR ƏLİYEV SARAYI) | | |
| *Festivalın Açılış Tədbiri* | *15:00-16:00* | Qərbi Azərbaycana həsr olunmuş sərginin nümayişi |
| | *16:00-16:05* | Aparıcının təqdimatı |
| | *16:05-16:10* | **Çıxış:** AMEA-nın müxbir üzvü Misir Mərdanov<br>*Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri* |
| | *16:10-16:15* | **Çıxış:** Professor Mehmet Cahit Güran<br>*Hacettepe Universitetinin rektoru* |
| | *16:15-16:20* | **Çıxış:** Akademik Əhliman Əmiraslanov<br>*Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı* |
| | *16:20-16:25* | **Çıxış:** Professor Musa Yıldız<br>*Gazi Universitetinin rektoru* |
| | *16:25-16:30* | **Çıxış:** Professor Gülçöhrə Məmmmədova<br>*Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının üzvü, Memarlıq və İnşaat Universitetinin rektoru* |
| | *16:30-16:35* | **Çıxış:** Professor Ömer Çomaklı<br>*Atatürk Universitetinin rektoru* |
| | *16:35-16:40* | **Çıxış:** Professor Vahid Novruzov<br>*Qərbi Azərbaycan İcmasının Nəzarət-Təftiş Komissiyasının sədri, Azərbaycan Auditorlar Palatasının sədri* |
| | *16:40-16:45* | **Çıxış:** Akademik Abel Məhərrəmov<br>*Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının üzvü* |
| | *16:45-16:50* | **Çıxış:** Professor Cəfər Cəfərov<br>*Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru* |

| Festivalın Bədii Hissəsi | | |
|---|---|---|
| | *17:00-18:00* | Qərbi Azərbaycan folklor nümunələrindən ibarət konsert proqramı |
| | *18:00-19:00* | Sərbəst vaxt |
| | *19:00* | Şam yeməyi |

## *24.11.2023*

| Konqres | | A Salonu | B Salonu |
|---|---|---|---|
| | *09:00-10:45* | Konqresin I bölmə iclası | Konqresin I bölmə iclası |
| | *10:45-11:15* | Çay/kofe fasiləsi | Çay/kofe fasiləsi |
| | *11:15-13:00* | Konqresin II bölmə iclası | Konqresin II bölmə iclası |
| | *13:00-14:00* | Nahar fasiləsi | Nahar fasiləsi |
| | *14:00-16:30* | Konqresin III bölmə iclası | Konqresin III bölmə iclası |
| | *16:30-17:00* | Çay/kofe fasiləsi | Çay/kofe fasiləsi |
| | *17:00-19:00* | Konqresin IV bölmə iclası | Konqresin IV bölmə iclası |
| | *20:00* | Şam yeməyi | Şam yeməyi |

| Görüşlər | | |
|---|---|---|
| | *10:00-13:00* | Qərbi Azərbaycandan olan nümayəndə heyətinin Ordubad görüşləri |
| | *13:00-14:00* | Nahar fasiləsi |
| | *16:00-19:00* | Qərbi Azərbaycandan olan nümayəndə heyətinin Çalxanqala görüşləri |
| | *20:00* | Şam yeməyi |

| | | | |
|---|---|---|---|
| Film Nümayişi | *11:00-12:00* | Qərbi Azərbaycana həsr olunmuş filmin nümayişi | Gənclik mərkəzi |
| | *15:00-16:00* | Qərbi Azərbaycana həsr olunmuş filmin nümayişi | Gənclik mərkəzi |
| Kitab Təqdimatı | *11:00-12:00* | AMEA Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi şöbəsi"nin müdiri, dosent Hacı Həsənovun müəllifi olduğu "İrəvan şəhərinin XIX-XX əsrin əvvəlləri tarixinə dair" kitabının təqdimatı | Universitet Kitabxanası |

## Təşkilatçı Qurumlar

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Naxçıvan Dövlət Universiteti

Qərbi Azərbaycan İcması

## İştirakçı Qurumlar

Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi

Azərbaycan TEXNİKİ Universiteti

## Festival-Konqresin Həmsədrləri



### Fuad Nəcəfli

*Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi*



### Emin Əmrullayev

*Azərbaycan Respublikasının Elm və Təhsil naziri*



### Elbrus İsayev

*Naxçıvan Dövlət Universitetinin rektoru*



### Əziz Ələkbərli

*Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı*

# Fəxri Qonaqlar


Əhliman Əmiraslanov
Milli Məclisin
deputatı


Səbinə Əliyeva
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)


Səttar Möhbalıyev
Azərbaycan Həmkarlar
İttifaqları Konfederasiyasının
sədri


Elçin Babayev
Bakı Dövlət Universitetinin
rektoru


Mehmet Cahit Güran
Hacettepe
Universitetinin rektoru


Cəfər Cəfərov
Azərbaycan Dövlət Pedaqoji
Universitetinin rektoru


Necdet Ünüvar
Ankara Universitetinin
rektoru


Ədalət Muradov
Azərbaycan Dövlət İqtisad
Universitetinin rektoru


Misir Mərdanov
Qərbi Azərbaycan İcmasının
Müşahidə Şurasının sədri


Mahirə Hüseynova
ADPU-nun Beynəlxaq
əlaqələr üzrə prorektoru


Aygün Attar
TC Güvenlik ve Dış
Politikalar Kurulu Üyesi


Musa Yıldız
Qazi Universitetinin rektoru


Gülçöhrə Məmmədova
Memarlıq və İnşaat
Universitetinin rektoru


Ömer Çomaklı
Atatürk Universitetinin
rektoru


Elmar Qasımov
Bakı Ali Neft Məktəbinin
rektoru


İsmayıl Hacıyev
AMEA Naxçıvan Bölməsinin
sədri


Nəcibə Nəsibova
Azərbaycan Respublikasının
Türkiyədəki Səfirliyinin təhsil
müşaviri


Hüsnü Kapu
Qars Qafqaz Universitetinin
rektoru


Mehmet Hakkı Alma
İğdır Universitetinin rektoru


Vahid Novruzov
Qərbi Azərbaycan İcmasının Nəzarət-
Təftiş Komissiyasının sədri,
Azərbaycan Auditorlar Palatasının
sədri


Abel Məhərrəmov
Qərbi Azərbaycan İcmasının
Ağsaqqallar Şurasının üzvü


Vilayət Vəliyev
Azərbaycan Texniki Universitetinin
rektoru,
Qərbi Azərbaycan İcmasının Nəzarət-
Təftiş Komissiyasının üzvü


Anar Bağırov
Azərbaycan Respublikası
Vəkillər Kollegiyasının sədri


İbrahim Ethem Atnur
Milli Savunma Universitetinin
professoru


Kərim Şükürov
AMEA Tarix İnstitutunun
direktoru

## Naxçıvanda keçirilən Festival-Konqres Qərbi Azərbaycana qayıdış konsepsiyasına mühüm töhfədir.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin 2022-ci ilin dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə müəyyənləşdirdiyi tapşırıqlar və qayıdış konsepsiyası, əsasən, ziyalılar qarşısında mühüm vəzifələr formalaşdırmışdır. Bu görüşdə dövlət başçımız tərəfindən səsləndirilən fikirlər xalqımızın tarixində yeni bir dövrün başlandığını xəbər verdi. Dövlətimizin başçısı soydaşlarımızın öz doğma torpaqlarına qayıtması ilə bağlı yeni milli strateji hədəfləri açıqladı. Tarixi ədalətin bərpasına, sülhə olan töhfəmizi məhz elmi faktlarla, dürüst mənbələrlə çatdırmaq üçün Naxçıvan Dövlət Universitetinin təşəbbüsü ilə 23-24 noyabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə ölkəmizin ali təhsil müəssisələri və Türkiyədən olan 20-dən çox qurumun tərəfdaşlığı ilə ilk dəfə olaraq "Qərbi Azərbaycana qayıdış" festival-konqresi keçirilmişdir.



Naxçıvan Dövlət Universitetində "Qərbi Azərbaycana qayıdış" festival-konqresin Əsasnaməsi hazırlanmış, 36 nəfərlik Elmi Komitə, 45 nəfərdən ibarət Təşkilat Komitəsi, rəsmi saytı və loqosu yaradılmışdır.

Festival-konqresdə əslən Qərbi Azərbaycandan olan vətəndaşlar, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin müəllim və tələbələri, eyni zamanda Qərbi Azərbaycan İcmasının, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Bakı Dövlət Universitetinin, Azərbaycan Dövlət İqtisad Universitetinin, Azərbaycan Memarlıq və İnşaat Universitetinin, Azərbaycan Texniki Universitetinin, Bakı Ali Neft Məktəbinin, AMEA Naxçıvan Bölməsinin, AMEA Tarix İnstitutunun, Vəkillər Kollegiyası Akademiyasının, eləcə də qardaş Türkiyədən Ankara Universitetinin, Hacettepe Universitetinin, Qazi Universitetinin, Atatürk Universitetinin, Qars Qafqaz Universitetinin və İğdır Universitetinin rektorları və geniş tərkibdə heyətləri təmsil olunmuşdur. Festival-konqresin təşkilində Naxçıvan Muxtar Respublikasının İcra Hakimiyyətləri, Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi və Rəssamlar Birliyi iştirak etmişdir.

Festival-konqresdə Azərbaycanın və Türkiyə Respublikasının bir sıra aparıcı universitetlərinin rektorları, millət vəkilləri, akademiklər, incəsənət xadimləri, dövlət və hökumət nümayəndələri iştirak etmişdir.























“Qərbi Azərbaycana qayıdış” festival-konqresin rəsmi açılış mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının Elm və Təhsil naziri Emin Əmrullayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun prorektoru, professor Mahirə Hüseynovanın çıxışları dinlənilmişdir.



"Qərbi Azərbaycana qayıdış" festival-konqresin rəsmi açılış mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi
**Fuad Nəcəfli,**



Azərbaycan Respublikasının Elm və Təhsil naziri
**Emin Əmrullayev,**



Naxçıvan Dövlət Universitetinin rektoru
**Elbrus İsayev,**



Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı
**Əziz Ələkbərli,**



Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)
**Səbinə Əliyeva,**



Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun prorektoru, professor
**Mahirə Hüseynovanın** çıxışları dinlənilmişdir.





“Qərbi Azərbaycana qayıdış” festival-konqresin açılış tədbirinin bədii hissəsində Naxçıvan Dövlət Universitetinin xor kollektivinin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Festival-konqresin açılış tədbirində Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının bakalavr və magistratura üzrə təhsil alan tələbələri tərəfindən tədbirin əsas qayəsini özündə əks etdirən “Sevin Azərbaycanı” adlı maraqlı tamaşa-kompozisiya təqdim olunmuşdur.









Universitetin "Muğam üçlüyü"nün ifasında "Zəngəzurum" muğamı, rəqs qrupunun ifasında "Azərbaycan Suitası", Aşıqlar ansamblının ifasında "Baş müxəmməs", "Naxçıvanqala" ritm qrupunun ifasında "Qarabağ" kompozisiyası nümayiş olunmuş, Naxçıvan Dövlət Universitetinin yeni yaradılmış 56 nəfərdən ibarət "Xalq çalğı alətləri orkestri" və 17 nəfərdən ibarət "Buta" instrumental ansamblının ifalarında Qərbi Azərbaycana xas olan musiqi nömrələri təqdim olunmuşdur.









Bədii hissədə ölkənin tanınmış musiqi xadimləri - xalq artistləri Ağaverdi Paşayev, Gülyanaq Məmmədova, Nurəddin Mehdixanlı, Əməkdar artistlər Elnur Zeynalov və Nuriyyə Hüseynova iştirak etmişdir.

























Açılış tədbirindən sonra "Dövlət Qonaq Evi"ndə Universitetin Texnologiya Mərkəzi tərəfindən Qərbi Azərbaycan mətbəxinə məxsus olan kulinariya sərgisi keçirilmiş, sərgiyə 59 çeşid yemək, 44 çeşid meyvə və meyvə qurusu, 30 adda müalicəvi bitkilər, 94 növ mürəbbə, 12 adda bitki çayı, 13 növ şirniyyat çıxarılmışdır.











Heydər Əliyev Sarayında təşkil olunmuş sərgidə Qərbi Azərbaycan mədəniyyətinə aid milli geyim nümunələri, məişət əşyaları, quramalar, xalçalar, keçə sənəti nümunələri, bədii tikmələr, Qərbi Azərbaycan xəritəsini əks etdirən dekorativ sənət nümunələri, Qərbi Azərbaycanı təbliğ edən suvenirlər, eyni zamanda Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin müəllim və tələbələri tərəfindən hazırlanmış Qərbi Azərbaycana məxsus tarixi abidələrin maketləri təqdim edilmişdir. Həmçinin festival-konqresdə universitetin İncəsənət fakültəsinin müəllim və tələbələri tərəfindən 100-dən çox rəngkarlıq, heykəltəraşlıq, dekorativ-tətbiqi sənət nümunələri nümayiş olunmuşdur.






















































Misir Mərdanov



Əhliman Əmiraslanov



Gülçöhrə Məmmədova



Vahid Novruzov



Abel Məhərrəmov



Mehmet Cahid

Heydər Əliyev Sarayında festival-konqresin rəsmi qonaqları Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü Misir Mərdanovun, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı akademik Əhliman Əmiraslanovun, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının üzvü, Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədovanın, Qərbi Azərbaycan İcmasının Nəzarət-Təftiş Komissiyasının sədri, Azərbaycan Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının üzvü, akademik Abel Məhərrəmovun, Hacettepe Universitetinin rektoru, professor Mehmet Cahit Güranın,



Musa Yıldız



Cəfər Cəfərov



Hüsnü Kapu



Aygün Attar

Qazi Universitetinin rektoru, professor Musa Yıldızın, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərovun, Türkiyə Respublikası Güvenlik ve Dış Politikalar Kurulu Üyesi Aygün Attarın çıxışları dinlənilmişdir.

Festival-konqresin Heydər Əliyev Sarayında keçirilən bədii hissəsində Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi və universitetin tabeliyində olan Musiqi Kollecinin müəllim və tələbələrinin, eyni zamanda rayon, şəhər mədəniyyət qruplarının ifasında Qərbi Azərbaycana aid aşıq musiqiləri, yallılar, kompozisiyalar, musiqi nömrələri, xalq oyunları təqdim olunmuşdur.









"Qərbi Azərbaycana qayıdış" festival-konqres müddətində Naxçıvan Dövlət Universitetində Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor Mahirə Hüseynovanın "Qərbi Azərbaycan toponimləri" mövzusunda, Vəkillər Kollegiyası Akademiyasının rektoru, hüquq elmləri doktoru, professor Əmir Əliyevin "İnsan hüquqlarının müdafiəsinin beynəlxalq mexanizmləri", Vəkillər Kollegiyasının üzvü, hüquq elmləri doktoru, professor Mayis Əliyevin "Əmək mübahisələrinə baxılmasının məhkəmə təcrübəsi", Vəkillər Kollegiyasının İxtisas Komissiyasının sədri, "Azərbaycan Hüquq Jurnalı"nın baş redaktoru, hüquq elmləri doktoru, professor Turqay Hüseynovun "Kommersiya mübahisələrinin həllinin aktual məsələləri", Vəkillər Kollegiyasının üzvü, hüquq elmləri doktoru, professor Sübhan Əliyevin "İnzibati məhkəmə icraatında iddialar və onların növləri" mövzularında mühazirələri və ustad dərsləri keçirilmişdir.












Festival-konqres çərçivəsində Naxçıvan Gənclik Mərkəzində "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyi (AJN) tərəfindən Qərbi azərbaycanlıların doğma torpaqlarına qayıdışı mövzusuna həsr olunmuş "Nəsil ağacı" və "Yada Daşı" filmləri izləyicilərə təqdim olunmuşdur. Təqdimat mərasimində rəsmi qonaqlar, ziyalılar, ictimaiyyət nümayəndələri, tələbələr iştirak etmişdir.








"Qərbi Azərbaycana qayıdış" festival-konqresi çərçivəsində Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın "Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili", filologiya üzrə fəlsəfə doktoru, dosent Könül Həsənova və pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nazilə Abdullazadənin müəllifi olduqları "Zəkanın və milli yaddaşın təntənəsi" kitablarının, Azərbaycan Milli Elmlər Akademiyası Abbasqulu ağa Bakıxanov adına Tarix İnstitutu kollektivinin Qərbi Azərbaycan tarixi üzrə hazırladığı "XIX-XX əsrin əvvəllərində İrəvan şəhərinin tarixindən", dörd dildə nəşr edilən "İrəvan xanlığı", "İrəvan əyalətinin icmal dəftəri", "İrəvan əyalətinin müfəssəl dəftəri", Naxçıvan Müəllimlər İnstitutunun professoru Yusif Səfərovun "Aşıq yaradıcılığında Qərbi Azərbaycan" kitablarının təqdimatı keçirilmişdir.






MAHİRƏ HÜSEYNOVA
QƏRBİ AZƏRBAYCAN
PALEOTOPONİMLƏRİNİN
LİNQVİSTİK ETİMOLOJİ
TƏHLİLİ
BAKI-2023
Xankəndinin Xanı gəldi!

Festival-konqres çərçivəsində Universitetin İncəsənət fakültəsində Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Fəxriyə Xələfova ilə görüş keçirilmişdir. Görüşdə “Milli ornamentlərin harmoniyası” adlı kolleksiyadan geyim nümunələri sərgilənmiş və “Xan qızı Xurşidbanu Bəyim Natəvan” filminin təqdimatı keçirilmişdir




















“Qərbi Azərbaycana qayıdış” festival-konqresi çərçivəsində “Qərbi Azərbaycana qayıdışa gedən yol” adlı Konqres keçirilmişdir. Konqres 5 istiqamət üzrə keçirilmişdir: “Qərbi Azərbaycan: tarix, həqiqətlər və faktlar”, “Qərbi Azərbaycanın mədəni sərvətləri”, “Qərbi Azərbaycan dil faktları və toponimikası”, “Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri”, “Qərbi Azərbaycanda elm və təhsil”. Konqresə Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Dövlət Universiteti, AMEA Naxçıvan Bölməsi, Qərbi Azərbaycan İcması, Sumqayıt Dövlət Universiteti, AMEA Folklor İnstitutu, Vəkillər Kollegiyası Akademiyası, “Naxçıvan” Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Mingəçevir Dövlət Universiteti, Qars Qafqaz Universiteti, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, AMEA Əlyazmalar İnstitutu, AMEA Tarix İnstitutu, AMEA Qafqazşünaslıq İnstitutu, Azərbaycan Dövlət Aqrar Universiteti, AMEA Şərqşünaslıq İnstitutu, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Slavyan Universiteti, Prezident Kitabxanası, DTX-nın Heydər Əliyev adına Akademiyası, Sosial Tədqiqatlar Mərkəzi, Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Botanika İnstitutu, AQRA Elmin İnkişafına Dəstək İctimai Birliyi, Naxçıvan Musiqi Kolleci əməkdaşları məruzələrlə qatılmışdır. Ümumilikdə Konqresin elektron poçtuna məruzə üçün 30-dan artıq elm və təhsil müəssisəsindən 300-dək məqalə və tezis qəbul edilmişdir. Konqresin Elmi Komitəsi və rəyçiləri tərəfindən 173 alimin 157 məruzəsi seçilərək konqresin proqramına daxil edilmiş, həmin məruzələr 17 bölmə iclasında dinlənilmişdir.Konqresin sonunda bağlanış tədbiri keçirilmiş, iştirakçılara sertifikatlar təqdim olunmuşdur. Konqresin hər il keçirilməsi qərara alınmışdır.



"Qərbi Azərbaycana qayıdış" festival-konqresi çərçivəsində iştirakçıların Ordubad rayonuna səfəri təşkil olunub. Səfər çərçivəsində rayonun Parağa kəndində yaşayan Qərbi azərbaycanlılarla görüş keçirilib. Görüşdə Qərbi Azərbaycana məxsus folklor nümunələri, mədəniyyət və mətbəx nümunələri nümayiş etdirilib. Görüşün keçirildiyi məkanda qonaqlar üçün konsert proqramı da təşkil olunub.







"Qərbi Azərbaycana qayıdış" festival-konqresin iştirakçıları Kəngərli rayonunun Çalxanqala kəndində deportasiyaya məruz qalmış soydaşlarımızla görüşüblər. Qonaqlar Çalxanqala kənd mərkəzində Qərbi azərbaycanlılara məxsus müxtəlif məişət əşyaları, mətbəx nümunələrindən ibarət sərgiyə baxıblar.























Festival-konqres ölkənin əsas aparıcı mediasında - AzTV, Xəzər TV, Naxçıvan TV, Baku TV, Qərbi Azərbaycan TV, 525-ci qəzet, "Şərq qapısı" qəzeti, AZƏRTAC, Nuhçıxan, Report, APA, "Azərbaycan müəllimi" qəzeti, "İki sahil" qəzeti, Xalq qəzeti və başqaları daxil olmaqla ümumilikdə 133 qəzet, jurnal, televiziya və xəbər saytlarında işıqlandırılmışdır. Festival-konqres haqqında məlumatlar 20-dən çox xarici ölkə mediasında yer almış və həmçinin bundan narahatçılıq keçirən Ermənistan mediasında təşvişə səbəb olmuşdur.

Konqres-festivalda aşağıdakı nəticələrə gəlinmişdir:
Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin dediyi: "Bizi Qərbi Azərbaycana böyük qayıdış gözləyir" hədəfi istiqamətində festival-konqresin bütün iştirakçıları tərəfindən birlik və əminlik ifadə edilmişdir;
Qərbi Azərbaycanda ermənilərin və onlara havadarlıq edənlərin xalqımıza qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti, milli faciə və vandalizm faktlarının geniş şəkildə ictimaiyyətə çatdırılması təmin edilmişdir;
Ermənilərin doğma torpaqlarımızda yerləşdirilmələri, azərbaycanlıların planlı surətdə doğma yurdlarından qovulması ilə bağlı tarixi faktlara söykənilmiş, yeni, dolğun məlumatlar təqdim olunmuşdur;
Qərbi Azərbaycana məxsus maddi mədəniyyət nümunələri təqdim olunmuşdur;
Qərbi Azərbaycandan olan, muxtar respublikada yaşayan sakinlər ilk dəfə olaraq bir araya gəlmiş və onlarla görüşlər keçirilmişdir;
Ermənistan Respublikasının dövlət səviyyəsində həyata keçirdiyi etnomədəni siyasətin qurbanı olmuş yer adlarımızın – toponimlərin, oykonimlərin, hidronimlərin dəyişikliyə məruz qalmasının tarixi faktlara söykənərək elmi əsaslarla təsdiqinə və dünya elmi ictimaiyyətinə çatdırılmasına çalışılmışdır;
Ölkəmizin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, həmçinin qardaş Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçıları bir araya gəlmiş, onların Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yeniliklər dinlənilmiş və fikir mübadiləsi aparılmışdır.
Ümumilikdə, "Qərbi Azərbaycana qayıdış" festival-konqresinə müxtəlif formatda 10 min nəfərdən çox iştirakçı qatılmışdır.

# Fotoqalereya



"QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ"
FESTİVAL-KONQRES

NAXÇIVAN ŞƏHƏRİ
23-24 NOYABR 2023-CÜ İL


"QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ"
FESTİVAL-KONQRES
NAXÇIVAN ŞƏHƏRİ
23-24 NOYABR 2023-CÜ İL
Şörəyel
Dağ Borçalısı
Dilican
Karbibasar
Qırxbulaq
Göyçə
Sərdarabad
İrəvan
Zəngibasar
Dərələyəz
Zəngəzur


"QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ"
FESTİVAL-KONQRES
NAXÇIVAN ŞƏHƏRİ
23-24 NOYABR 2023-CÜ İL




"QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ"
FESTİVAL-KONQRES
NAXÇIVAN ŞƏHƏRİ
23-24 NOYABR 2023-CÜ İL










Mahira Nağıqızı Hüseynova
NDU


NDU


NDU




Mahirə Nağıqızı Hüseynova
NDU










































































QƏRBİ AZƏRBAYCANIN DƏRƏLƏYƏZ MAHALI
BU XƏRİTƏ TARİXİ MƏNBƏ VƏ XƏRİTƏLƏRİN ƏSASINDA TƏRTİB EDİLMİŞDİR
PROF. H.İ.MİRZƏYEV


КӘЧМӘ БИЛЕТИ
ПЕРЕСЕЛЕНЧЕСКИЙ БИЛЕТ












HEYDƏR ƏLİYEV


NAXCIVAN
ZƏNGƏZUR










Günel-23





## Media Dəstəyi

TƏRTİBÇİ: Məhəmmədəli MƏMMƏDLİ

KOMPÜTERÇİ RƏSSAM: Sahilə ABBASOVA